Fərman Nəbiyev
Köhnə qəbirstanlıq
Mingəçevir İşıqları № 16 (5946) 27 aprel-3 may 2003

**Bizə yol gərəkdir, yoxsa abidə?**
**Birinciyə ehtiyac varsa da ikinciyə üstünlük verilir**

Bu gün Mingəçevirin iki nöqtəsində – Xaldan şossesi tərəfdən girəcəyində və M.Ə.Rəsulzadə prospekti ilə S.Vurğun küçəsinin kəsişməsində qızğın iş gedir. «Üç qardaş» abidəsinin yerində qədim Mingəçevirin, «Ana dili» abidəsinin qarşısında isə Xalq Cümhuriyyətinin rəmzi sayılacaq yeni abidələr qurulur. Çoxdan işsiz qalan inşaatçılar həvəslə çalışırlar. Bir vaxt onlar qabarlı əlləri ilə yaşayış binaları uçaldır, park və xiyabanlar qurur, yollar salırdılar. İndi yollara adda-budda yamaq vurmaqla gözə kül üfürürlər. Güya abadlaşdırma ilə məşğuldurlar.

Hazırda Azərbaycanın əksər şəhər və rayonlarında, o cümldən Gəncədə və Mingəçevirdə nəqliyaat vasitələrinin rahat hərəkət edə biləgəyi normal yol yoxdur. Prezidentin Gəncə səfərindən sonra bir qədər vəsait ayrıldı və bu işə başlandı. Lakin onu axıra çatdırmadılar. Nəinki mərkəzdən kənardakı kücələrə əl gəzdirmədilər, əksinə, köz qabağındakı yolların da abadlaşdırılmasını yarımçıq qoydular.

Hamı pulun qeybə çəkilməsindən narahatlıqla danışır. Əhali problemi qaldıranda vəsait çatışmazlığından onun həll olunmadığını bildirirlər. Əslində isə günahı hökumət səviyyəsində korrupsiyanın baş alıb getməsində axtarmağa ehtiyac var. Heç uzağa getməyək. Mingəçevirdəki texniki-rezin məmulatları və elektroizolyasiya zavodlarının acınacaqlı vəziyyətə düşdüyü göz qabağındadır. Həmin müəssisələrdə bir-birini əvəz edən başçılar uçulmamış dam qoymadılar. Olanı dəyər-dəyməzinə satdılar. Keyfiyytsiz, istifadəyə yararsız xammalı baha qiymətə sənədləşdirib, zavodun anbarına daşıtdırdılar. İndi həmin zavodlardan ikincisinə təyin olunan direktora belə bir tapşırıq verilib: «Müəssisə özəlləşməlidir. Sənin vəzifən qalan avadanlıqları qorumaqdır». Görəsən, bu və digər istehsalat müəssisəsini dağıtmaqdan öncə, özəlləşdirməyə vermək mümkün deyildimi?

Vaxtilə iripaneldən evtikmə kombinatları kimi ad çıxaran sənaye obyektlərinin əksəriyyəti indi köhnə qəbiristanlığı xatırladır. Bu barədəbir qədər ətraflı danışmaq istərdik. On bir il öncə yarımçıq tikililərin inşası dayandırılsa da, heç kim güman etmirdi ki, bu, uzun çəkəcək. Doqquzmərtəbəli binanın sonuncu mərtəbəsinin üstünə axırıncı paneli qaldıracaq qülləli kranın və onun üzərində dayandığı relslərin satılacağına da inanmaq istəməzdik. Amma bu, baş verdi. O da reallıqdır ki, illərdən bəri mənzil növbəsində dayananlar lifti, su, işıq və kanalizasiya xətti, qapı-pəncərəsi olmayan, döşəməsi taxtalanmayan, üstü örtülməyən binada məskən salmağa qərar verdilər. Və ictimayyətdə belə bir fikir formalaşdırdılar ki, onsuz da indidən sonra ev tikilməyəcək, yaxşısı budur yarımçığa qane olaq.

Camaat görəndə ki, hətta dəmir-beton plitələrin hazırladığı qəlibləri də doğrayıb, uçuz metal qiymətinə satırlar, sabaha ümidini üzdü. Beləcə zavodlar boşaldı, yetmiş il ərzində qurulan. Yaradılan yeddi-səkkiz ilin içərisində talan edildi. Son nəticədə işsizlərdən ibarət böyük ordu yarandı. Sivil ölkələrdə biliyi və qabiliyyəti ilə çox böyük hörmət və vəsait qazanası öğullarımız tərəzi dalında durmaq, istedad və bacarığını uçuz işçi qüvvəsinə çevirmək məcburiyyətində qaldı.

Aranda yaşayanların əksəriyyəti Əli kişi barədə eşidib. O, Bozdagın ətəyində qəbiristanlıq salmış bir insandır. Danışırlar ki, minik maşını almaq üçün pul yığan bu adam anasını uzaqda yox, evinin yaxınlığında torpağa tapşırmaq qərarına gəlir: «İstəyirəm gözümün qabağında ol, hər cün məzarına ziyarətə gəlim…» O, məzarın

ətrafını abadlaşdırdıqdan sonra ölçüsü düşənlər bura üz tuturlar. Beləcə Mincəçevirdə Əli kişinin adı ilə tanınan qəbiristanlıq yaranır.

Sağlığında biz onunla tez-tez görüşərdik. Yeni qəbirlərin arasından arxlar qazar və hər addımbaşı ağac əkərdi: «İmkansız adamlar gəlib onların mer-meyvəsindən yığıb aparsınlar». Əzizlərinin qəbri üstünə gələnlər isə bu ağacların gölgəsində istidən və soyuqdan qoruna bilir və hər dəfə də öz yaxınları ilə bərabər Əli kişiyə də rəhmət oxuyurlar.

**Bir hasiyə.** **Bir neçə il öncə bizim yanımıza gələn Əli kişi bildirdi ki, Bozdağı yaşıllaşdırmaq fikrinə düşüb: «Plan hazırlamışam. Çox da pul lazım deyil». Həm də yeri darayan qəbiristanlığı genişləndirmək fikrində olduğunu da açıqladı:**

**«Dedim ki, mənə buldozer ayırın, bir də onun yanacağını verin. Məni imkanları olmadığına inandırmağa çalışdılar. Vaxt gələr, siz öləndə basdırmağa yer tapılmaz – dedim. Nə cavab versələr yaxşıdır: «Vəsiyət etmişəm ki, öləndə məni Qazaxa aparsınlar». Uzun illər bu şəhərin çörəyini yeyənlərin şəhərə ögeyliyi öldürəcək məni…»**

Sağlığında özünə abidə yaradan Əli kişidən və onun kimilərdən fərqli olaraq, bu gün dilimizə və tariximizə daş abidə ucaldanların əməllərinə haqq qazandıranlır azdır… Rəyini soruşduğumuz təşkilat rəhbərləri, sıravi adamlar gah çiyinlərini çəkir, gah da dodaq büzürlər: «Bunlardansa yolumuzu düzəltdirydilər», Məhəlləmiz suyun, palçıgın içində, heç olmasa bir maşın asfalt gətirib töksünlər». «Daşa baxmaqla nə qazanasıydıq? Ona çəkilən xərcə iş yeri açə bilməzdilərmi?» Əslində bu xərc də çamaatın belindən çıxır. Abidə tikintisinə yardım göstərmək xahişi ilə aparatdan göndərilən rəsmi məktubu abır-həyasını gözləyənlər cavabsız qoymadı.